# Laçın həsrətli Gülrəng xanım

### *Proloq əvəzi*

**Dünya gözəlliklərlə doludur. Bu gözəlliklərin önündə isə qadınlardır. Dahilər bəşəriyyətin məhz qadınlarla xilas olacağını deyirlər. Ayaqlarının altı cənnət olan qadınlar cəmiyyətdə müvafiq yer tutmuş və bu gün də tuturlar.**

Zərif, incə, mehriban təbiətli bu qadınlar çox vaxt öz işgüzarlıqları ilə hər işdə nümunə göstərirlər. Sadaladığım bu keyfiyyətlərin hamısı mənim şəxsiyyətinə dərin hörmət etdiyim Gülrəng xanımda cəmləşib.

Ömür saf çeşmələrin sularından yaranan dağ çayı kimi sürətlə axıb keçir. Nə yaxşı ki, adam bunu özü hiss etmir. Birdə baxıb görürsən ki, artıq saç-saqqalın ağarıb, elin ağsaqqalı, ağbirçəyi, baba nənə olmusan.

### *Kimdir Gülrəng xanım?*

Gülrəng Nəsir qızı Cümşüdova 1951-ci il may ayının 4-də Laçın rayonunun Mığıdərə kəndində anadan olub. 1970-ci ildə Şuşa Pedaqoji texnikumunu bitirərək doğma kəndlərində müəllimlik fəaliyyətinə başlayıb. 1972-ci ildə Azərbaycan Dövlət Pedoqoji İnstutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olub. 1975-ci ildə ailə həyatı quraraq Qubadlının Xəndək kəndinə köçüb və müəllimlik fəaliyyətini orada davam etdirib. Burada qızları Nuriyyə, Vəsilə, Ülviyyə, Gülafət və oğlu Rəhim dünyaya göz açıblar.

Demək olar ki, ailə xoşbəxt idi. Bu xoşbəxtlik uzun sürmədi. 1986-cı ildə həyat yoldaşı Nəsib Niftəliyev avtomobil qəzasında dünyasını dəyişdi.

Cəmi 11 ilin gəlini, bir üzü qız, bir üzü gəlin olan Gülrəng xanım beş balasına həm ana , həm də atalıq etdi. Öz ömrünə qıyıb, övladlarını ərsəyə çatdırdı. Qoymadı atasız olduqlarını hiss etsinlər. Heç vaxt sınmadı, əyilmədi.

Beləcə yaralar qaysaq bağlayıb, həyat öz axarına düşərkən qara buludlar yenə onun başını alır. Doğulub boya - başa çatdığı Laçın gəlin gəldiyi, xoşbəxtliyini tapdığı Qubadlı ermənilər tərəfindən işğal olunur. Hamı kimi o da beş balasını, anasını götürüb Sumqayıta pənah gətirir.

### *Üzüm gülmədi, gülmədi*

31 avqust 1991-ci il yəqin ki, heç bir qubadlının yadından çıxmaz. Sanki qiyamət qopmuşdu. O günü xatırlayanda həmişə əsəblərim pozulur. Dörd qız balam, bir oğlum və qoca anam mənim ümidimə qalmışdılar, mən də Allah ın. Şükürlər olsun ki, Sumqayıta sağ-salamat



gəlib çatdıq. Yaxşı adamlar kömək etdi. Həm Laçın, həm də Qubadlı qaldı yadların əlində. Ürəyim gülmədi ki, gülmədi.

Sumqayıta ancaq canımızı götürüb gəlmişdik. Burada Politexnik texnikumunun yataqxanasında yerləşdik. Özümlə bərabər beş övladımın və xəstə anamın qayğısını çəkmək nə qədər ağır olsa da dözdüm. İki məktəbdə işlədim. Baş müəllim metodist ali kateqoriyalı müəllim adına layiq görüldüm. Yavaş-yavaş həyat öz axarına düşdü. 1999-cu ilin dekabr ayının 12 də keçirilmiş bələdiyyə seçkilərində Sumqayıt bələdiyyəsində üzv seçildim və təşkilat işi və daimi komissiyalarla iş şöbəsinin müdiri vəzifəsini daşıdım. Artıq 20 ildir ki, Sumqayıt bələdiyyəsində işləyirəm.

**Haşiyə:** Gülrəng Cümşüdova çox fəal ictimaiyyətcidir. Azərbaycan müəllimlərinin, Azərbaycan qadınlarının qurultaylarının nümayəndəsi olub. Qaçqınların və məcburi köçkünlərin ümumrespublika müşavirəsindəki çıxışı möhtərəm Prezidentimizin çox xoşuna gəlib. Gülrəng xanım öz övladları ilə fəxr edir. Bu da səbəbsiz deyil. Onlar öz nəsillərinin adını uca tutur, ənənəni layiqincə davam etdirirlər. Qızı Nuriyyə Tibb Universitetini , Vəsilə Sumqayıt Müəllimlər İnstitunu, Ülviyyə Bakı Dövlət Universitetini, Gülafət Tibb texnikumunu, oğlu Rəhim isə Bakı Dövlət Universitetini bitirib. Onların hərəsi bir işdə çalışır. Gülrəng xanım deyir ki, hər dəfə əsəbləşəndə nəvələrimi görəndə dünya mənə daha gözəl görünür, sakitləşir, yorğunluğumu unuduram. Nəvələrim Aygül, Fərəc, Emil, Gülbəniz, Əsmər, Günay və.s mənim üçün bir dünya sevincdir.

### *Laçınım, Laçınım mənim*

Hər bir adam üçün vətən onun doğulduğu yerdən başlayır. Laçın tarixi keçmişi olan bir ərazidir. Laçın abidələri hələ eramızdan əvvəl I-II-minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə ediləbiləcək qədər dəyərli və nadir abidələrdəndir. Burada 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayonun 6 nəfər Milli Qəhrəmanı var. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəyib. Bir mahnıda belə deyilir:

**Kölgəm qədər yaxınsan**
**Ancaq tuta bilmirəm**
**Unut demək asandır**
**Mən unuda bilmirəm**

Necə unudum, unutmaqmı olar? Rəhmətlik Məhəbbət Kazımovun " Laçınım mənim" mahnısını eşidəndə tək mən yox bütün laçınlılar saatlarla özünə gələ bilmir. Sağlıq olsun...

### *Laçın, sonra Sumqayıt*

Laçında, doğulsam Qubadlıda yaşasam da elə bilirəm xoşbəxtliyimi Sumqayıtda tapmışam. Ona görə ki, övladlarım oxudular, ailə qurdular. 14 nəvəm var. Bəli xoşbəxtəm, bu günə şükür. Mən inanıram ki, çox çəkməyəcək, torpaqlarımız azad olacaq. Möhtərəm Prezidentimiz axrıncı dəfə Sumqayıta gələndə dənizkənarı bulvarda görüşdük. Üzündən öpdüm. Yaxşı da çıxış elədim. Güldü, razı qaldı. Qabaqdan Sumqayıtın 70 illik yubileyi gəlir.

Bu gün Sumqayıt göz oxşayır. Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov əlindən gələni edir. Onu tərifləməyə ehtiyac yoxdu. Bunu hamı görür. Mən Sumqayıtlılara çox minnətdaram. Respublikamızın heç bir rayonunda və ya şəhərində bu qədər qaçqın və məcburi köçkün yoxdur. Azərbaycanın hər yeri gözəldir.

Ancaq mənə desələr ki, yaşamaq üçün haranı seçərdin, mən çəkinmədən deyərdim ki,Laçın sonra Sumqayıtı. Qarşıdan gələn bayram münasibəti ilə başda hörmətli Zakir Fərəcov olmaqla bütün Sumqayıtlıları ürəkdən təbrik edir, onlara can sağlığı arzulayıram.

**İbrahim Abdullayev**


**Elanlar**

**Nəsirova Leyla Şirxan qızına məxsus Sabunçu rayonu Ləhiş bağ massivində yerləşən №5891 bağ sahəsinin BAĞIN ICARƏYƏ VERILMƏSI HAQQINDA 29666 nömrəli müqavilə itirildiyi üçün etibarsız sayılsın.**

***

**Cəlilabad rayonunun Təzəkən kənd sakini Şahbazov Abı Musaxan oğlunun adına olan torpağa Daşınmaz Əmlakın Dövlət Reyestrindən verilmiş JN-093, KOD 80620028 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Samux rayon Bağbanlar kənd sakini Abışov Əziz Bahadur oğlunun adına verilmiş JN-131 A kod: 50702038 saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**